**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 65

**Bakı şəhəri** "08" iyul 2014-cü il

**"Bakı şəhərinin uşaq əhalisinə göstərilən sanator müalicəsinin keyfiyyətinin artırılması barədə"**

Son dövrdə xəstə uşaqların pozulmuş funksiyalarının bərpası və sağlamlaşdırıcı tədbirlərin aparılması üçün Bakı şəhərində yerləşən uşaq sanatoriyalarının fəaliyyətinin gücləndirilməsi və bu sahədə uşaqlara göstərilən xidmətin keyfiyyətinin artırılması zərurəti yaranmışdır.

Qeyd olunanlarla əlaqədar və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin 26 may 2014-cü il tarixli 140120203765 nömrəli məktubunu nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində olan sanatoriyaların adı və profili dəyişdirilərək aşağıdakı kimi adlandırılsın:

-21 nömrəli Qastroenteroloji və Pulmonoloji Uşaq Sanatoriyası - 1nömrəli Uşaq Somatik Sanatoriyası;

-35 nömrəli Uşaq Kardiorevmatoloji Sanatoriyası -3 nömrəli Uşaq Somatik Sanatoriyası;

-36 nömrəli Uşaq Pulmonoloji Sanatoriyası -4 nömrəli Uşaq Somatik Sanatoriyası;

-37 nömrəli Uşaq Kardiorevmatoloji Sanatoriyası -5 nömrəli Uşaq Somatik Sanatoriyası;

-39 nömrəli Uşaq Kardiorevmatoloji Sanatoriyası -6 nömrəli Uşaq Somatik Sanatoriyası;

-22 nömrəli Uşaq Ruhi Əsəb Sanatoriyası -2 nömrəli Uşaq Nevroloji Sanatoriyası;

-41 nömrəli Uşaq Ruhi Əsəb sanatoriyası -7 nömrəli Uşaq Nevroloji Sanatoriyası.

2. Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın:

2.1. bu əmrin 1-ci bəndində qeyd olunan sanatoriyaların əsasnamələrində və ştat cədvəllərində müvafiq dəyişikliklər edilərək müəyyən edilmiş qaydada təsdiq edilsin;

2.2. xəstə və xəstələnmə riski olan uşaqların sanatoriyalara göndərilməsi tibbi göstərişlərə əsasən ambulator-poliklinika müəssisələri tərəfindən ərazi prinsipinə uyğun olaraq həyata keçirilsin.

3. Respublika Klinik Uşaq Xəstəxanasının baş həkimi N.Qasımovaya tapşırılsın ki, uşaq sanatoriyalarına təşkilati-metodik yardımın gücləndirilməsi təmin edilsin.

4. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**